

KƏMALƏ ƏLİYEVA

# QIZIL

*(hekayə)*

Telefon susmaq bilmirdi. İstirahətinə mane olduqları üçün qanı yamanca qaraldı. Tənbəl-tənbəl yerindən qalxıb, ayaqlarını ardınca sürüdü. Dəstəyə "Allo" deməyə macal tapmamış min səsin içindən seçilən səs "Günorta bizə gəl, vacibdir, etiraz qəbul olunmur" - dedi və şaqqanaq çəkib güldü. Bildi ki, etirazın yeri yoxdu, Şakir nəyin bahasına olur-olsun onu razı salmayınca əl çəkən deyil, söz verməkdən başqa çarəsi qalmadı. Təmir olunacaq nəsə onun yolunu gözləyirdi.

Onu həmişə olduğu kimi, ən əziz adam kimi qarşıladılar, masanın yuxarı başına keçirtdilər. Xoş-beş, on beş etdilər. Şakirin ailəsi onun xətrini çox istəyir, şad və bəd günlərində onu mütləq surətdə sıralarında görmək istəyirdilər. Həyətdə tut ağacının altında yaxşı süfrə açmışdılar.

Masaya onun sevdiyi kəkotulu çay gətirdilər. Subay olduğu üçün sevdiyi xörəklərdən hazırlanmışdı: Mətbəxdən gələn ətir burnunu qıcıqlandırdı və məmnuncasına qımışdı.

Söhbət get-gedə qızışır, məclis axarına düşürdü. Şakirin danışdığı lətifəyə qəhqəhəylə gülüb, qəşş edirdilər. Elə bu vaxt dəmir alaqapı açıldı, təzəbəy Zakir həyat yoldaşı ilə içəri daxil oldu. Masa arxasında oturanlar da büruzə verməməyə çalışdıqları pərtlik yarandı. Onların gəlişindən xəbərsiz olduqları ortada idi. Qonağın başı çaya qarışdığından yanındakılarda yaranmış dəyişikliyi sezmədi. Təzəbəylə qucaqlaşıb görüşdü və gəlinə də dilucu salam verdi. Gəlin çoxdan tanıdığı əziz qonağa "Sizi də xoş gördük" deyib, tez o biri qadınların biş-düşlə məşğul olduğu mətbəxə tələsdi. Anidən gözü təzəgəlinin barmağındakı nişan üzüyünə sataşdı. Beyni dumanlandı və ildırım sürətilə 92-ci ilin o məşum qışına qayıtdı...

Qayanın ən dik yerinə qədər sürünmüşdü. Bundan o yanası uçurum idi. Alçaqlarsa arxasınca addımbaaddım irəliləyirdilər. Yeganə variant uçurum idi - ancaq ən azından bunlardan birini özüylə aparmaq istəyirdi gedər-gəlməzə. Amma cüzi ehtiyatsızlıq əsir düşməsinə səbəb ola bilərdi. Deyəsən, murdarın barmaqlarının çəkməsinə sürtündüyünü hiss etdi. Dərhal var gücüylə at kimi geriyə təpik atdı. Arxadan zingiltiyə bənzər səs eşidildi: dəqiq hesabladığından gülümsündü. Diri tutmaq istədiklərindən arxayın idi. Əsirlərin orqanlarını satdıqlarından diri ələ keçirməyə ça-

lışırdılar. Amma yüngül yaralayıb ələ keçirə bilərdilər deyə elə dayanmaq istəyirdi ki, son olaraq ya dirisi, ya da ölüsü yarğana yuvarlansın....

Təxminən beş dəqiqə keçdi. Bütün həyatı - ağlı kəsəndən yarım saat öncəyə qədər hamısı gözü önündən keçdi. Və özü də heyrətə gəldi. Otuz iki illik ömrü necə ardıcıllıqla kino kimi xəyalında canlandı? Həyatın bu qədər şirin olduğunu heç vaxt anlamamışdı. "Oğlum olmuş olsaydı, adımı yaşadardı" - fikrindən keçirtdi. - "Yaxşı ki də yoxdu, yetim qalacaqdı" - köks ötürdü. Birdən şalvarının cibində düyünçədəki qızılları xatırladı. Artıq altı ay idi ki, üstündə gəzdirirdi. Kimsə qaçqınlıq zamanı salıb itirmişdi. Düyünçə ürəyinə köz basdı: Kaş ki uşaqlardan birinə verəydim, indi mənlə dərənin dibinə düşməyəydi. Ehh, qismətdə bu cür ölüm də varmış. Görəsən, cəsədinin başına nə gələcək, yəqin qurd-quş parçalayacaq. Əsəbindən beyni uğuldadı, artıq nə eşidir, nə də görürdü. Sadəcə huşunu itirməmək üçün gözlərini geniş açıb baxırdı ki, düşmənin əlinə keçməsin. Bir metrlik məsafə ayırırdı onları. Vaxtilə bir masa ətrafında yeyib-içdiyi, qızları ilə eninə-uzununa kef çəkdiyi xalqın nümayəndələri indi onun qanına susamışdılar. Görəsən, gürcülərlə də bu aqibəti yaşayacağıqmı? Fikrindən üşürgələndi...

Hamısı adamlıqdan çıxmışdı - o da, onlar da. Bir-birilərinin gözlərinə nifrətlə baxmaqdan başqa əllərindən gələn bir iş yox idi. Deyəsən, çox müddət keçmişdi, susuzluqdan dodaqları partlamışdı. Bir qurtum su həyatın özü qədər dəyərli idi onunçün indi...

Erməninin üçü aşağıya düşmüş, biri sadəcə yolu kəsməkçün qalmışdı. Avtomatını sığallayıb "Kaş, bircə dənə olsun patronum qalmış olaydı" - fikirləşdi. "Bu dığanın alnını odlayardım".

Atlet təsiri bağışlayan erməni anidən yuxarı atıldı. Onun ayağından yapışıb, aşağı çəkmək istədi. Süpürləşdilər və əzələli qolları sayəsində erməninin boğazından yapışıb, var gücü ilə boğdu. Boynu armud saplağı kimi yanına düşəndə avtomatını ələ keçirib, alnına güllə sıxdı. Dərhal da qarşı tərəflərdən atəş səsləri eşidildi ...

...Gözlərini açanda yoldaşları ətrafına cəm olmuşdular. Onu salamat gördüklərinə sevinsələr də, gözlərindən elə dərin kədər yağırdı ki. Baxışlarıyla "nə olub?" soruşdu. Dilboğaza qoymayan Şakir "Tapdığın arvadı qaçıb qardaşlarına xəbər verib, biz kənddə olmayanda gəlib camaatın başına oyun açıblar" - dedi. Binamus bunu niyə göndərməyib dədəsinin xarabasına axı müharibə başlayandan sonra görəsən? Bu da axırı...

Tapdıq meşəbəyi idi. Iyirmi üç il idi ki, erməniylə ailə qurmuşdu...

Dövlət televiziyasından çəkiliş qrupunun gəlmə xəbəri hamının qanını coşdurdu. Jurnalistin tanış siması, doğma səsi onlara ruh yüksəkliyi verdi. Şakir yenə də sinəsini qabağa verib od püskürürdü. Mayıl demişkən, uçana-qaçana macal vermirdi. Ağzı köpüklənə-köpüklənə danışır, daha doğrusu, çığırır, şikayət edir, bir sözlə "Xalq qəhrəmanı"na çevrilirdi...

İşın ən ağırını görənlərdən biri o olsa da, ən arxada dayanıb danışmır, ağacdan qəlyan yonurdu. Operator Seyidağa Mövsümov birdən ona xitab edərək "Siz nə demək istəyirsiniz?" - Bakıdan gələn yeganə döyüşçü olduğunu bilib, onun fikrini bilmək istədi. O, isə adəti üzrə bir-iki kəlməylə fikrini yekunlaşdırdı...

Cəbhədən qayıdandan bir müddət sonra Şakir onun iş yerinə gəlib, qızılın yiyəsinin tapıldığını xəbər vermişdi. Onun çiynindən yük götürülmüş və nəhayət, qızılların sahibinə ulaşması üçün çox sevinmşdi...

...Cəbhədə yarım ilə qədər üstündə gəzdirdiyi qızılları və nişan üzüyünü Şakirgilin gəlinində görəndə beyni 92-ci ilin qışındakı kimi həyatla əlaqəsini itirdi.